# Xain İrana Azərbaycandan mərdlik dərsi

Ötən cümə günü dünya xain İranın Tehrandakı Azərbaycan səfirliyinə etdiyi qanlı terror aktından sarsıldı, dəhşətə gəldi.

Ötən cümə günü əliyalın Azərbaycan oğlu qorxmadan silahlı terrorçunun üzərinə yeriyərək onu tərk-silah etdi və aləmi şücaətinə heyran buraxdı.

Ötən cümə günü ermənipərəst İran insanlıq əleyhinə əməlləri ilə bir daha xar oldu, Odlar yurdunun igid oğullarının Vətənlərinin mənafeləri üçün canları, qanları bahasına necə çarpışıb-vuruşduğuna canına düşən vahiməli qorxu ilə şahidlik etdi.

Xain İran bir daha anladı ki, Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısında daim əzilməyə, məhvə məhkumdur, necə ki, "canbiri" Ermənistan bu aqibəti 44 günlük savaşda yaşayıb, hazırda da diplomatik platformada yaşayır. Və xain İranın Tehrandakı səfirliyimizə qarşı törətdiyi terror aktı nəticəsində əlini şəhidimizin qanına cümə günü, müsəlman aləminin ən müqəddəs günündə batırması isə bir başqa paradoks oldu...

## İranın müqəddəs cümə günləri törətdiyi murdar əməllər

Müsəlman adı altında dinsiz əməllərlə məşğul olan və dünyada adı daim terrorla qoşa çəkilən İranın gözünün heç zaman Azərbaycanı götürmədiyi danılmaz reallıqdır və faktdır ki, bu xain qonşu tarixboyu ölkəmizə qarşı imansız əməllər tutub.

# Xain İrana Azərbaycandan mərdlik dərsi



*Əvvəli 1-ci səh.*

Vətən müharibəsindəki parlaq zəfərimizdən sonra isə hirs-hikkəsi "dünyanı dağıdan" fars rejimi bölgədə lider dövlət olan, beynəlxalq arenada nüfuzu gündən-günə artan Azərbaycanın uğurlarını heç cür həzm edə bilmir. Buna görədir ki, açıq şəkildə ölkəmizə qarşı düşmənçilik nümayiş etdirir, təxribatlara əl atır, terror həyata keçirir.

İranın xain əməllərinə bariz bir nümunə çəkək: "mollalar" yanvarın 20-də, yəni cümə günü Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanı İranda məscidə, Həzrəti Fatimə Məsumənin məqbərəsinə ziyarətə apardılar. 30 illik işğal dövründə Azərbaycan torpaqlarındakı məscidləri dağıtması, onları təhqir etməsi, müqəddəs məkanlarımızda donuz saxlaması, eləcə də azərbaycanlıların timsalında Birinci və İkinci Qarabağ müharibəsində dinbirlərinin qanlarına əlini batırması kimi xəbis əməllərinə görə, İran nəinki Ermənistanın birinci xanımını, ümumiyyətlə statusundan asılı olmayaraq heç bir ermənini məscidlərin həndəvərinə buraxmamalı, müqəddəs məkanları murdarlamamalı idi. Amma İran sözügedən nifrətəlayiq əməlinin timsalında müsəlman məscidlərini təhqir etməkdən çəkinmədi...

Üzərindən heç bir həftə keçməmiş, növbəti cümə, yəni yanvarın 27-də erməniyanlı İran Azərbaycan səfirliyinə silahlı hücum gerçəkləşdirdi. Bu terror aktı nəticəsində səfirliyimizin mühafizəsini təşkil edən Orxan Əsgərov şəhid oldu, mühafizə xidmətinin iki əməkdaşı xəsarət aldı.

Ard-arda iki cümə günü törətdiyi çirkin əməlləri ilə terrorçu İran bir daha dinsizliyini, müsəlman adına qara ləkə olduğunu nümayiş etdirdi...

## Əliyalın şəkildə terrorçunun üzərinə atıldı...

Lakin dinsiz İran Azərbaycana qarşı törətdiyi bu mənfur əməlləri ilə heç nə qazana bilməz. Qüdrətli Azərbaycan dövləti İranın bütün təxribatlarının qarşısını almağa, törətdiyi terror əməllərinə layiqincə cavab verməyə qadirdir. Molla rejimi bunu elə səfirliyimizə qarşı təşkil etdiyi silahlı hücum zamanı hadisə yerində də isti-isti görüb anladı. Avtomat silahla silahlanmış terrorçunun üzərinə əliyalın yeriyən cəsur igidimiz Vasif Tağıyev qatili dərhal zərərsizləşdirdi. Cəsur igidimiz 2020-ci il noyabrın 8-də Şuşada düşmənin üzərinə əliyalın şığıyıb məhv edərək Azərbaycan xalqına Zəfər müjdəsi verən azman qardaşlarının qəhrəmanlıq yolunu davam etdirdi.

Əgər həmin hücum zamanı səfirliyimizin təhlükəsizlik xidmətinin əməkdaşı Vasif Tağıyev terrorçunu zərərsizləşdirməsəydi, səfirliyin bütün əməkdaşlarının qətlə yetirilməsi planlaşdırılmışdı.

Vasif Tağıyevin timsalında igid Azərbaycan oğlunun İranda xainlərə qarşı sərgilədiyi bu cəsur davranış barədə Prezident İlham Əliyev də qürurla söz açıb. Yanvarın 28-də İsrail Prezidenti İsxak Hersoq Prezident İlham Əliyevə zəng edərək Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını qınadığını bildirib, başsağlığı verib. Telefon danışığı zamanı İrandakı səfirliyimizə qarşı törədilən terror aktı barədə İsrail Prezidentinə ətraflı məlumat verən İlham Əliyev səfirliyimizin digər mühafizə əməkdaşının əliyalın şəkildə terrorçunun üzərinə atıldığını, qorxmaz və çevik hərəkətləri ilə onu tərk-silah etdiyini vurğulayıb.

Qeyd edək ki, yanvarın 28-də İran Prezidenti Seyid İbrahim Rəisi də Prezident İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı Prezident İlham Əliyev Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktını şiddətlə qınadığını bildirib, bu qanlı terror aktının hərtərəfli araşdırılacağına və cinayətkarların layiqli cəzalarını alacaqlarına ümidvar olduğunu qeyd edib. Prezident İlham Əliyev istintaqın şəffaf şəkildə aparılmasının vacibliyini vurğulayıb.

Azərbaycan Prezidenti səfirliyin digər mühafizə əməkdaşının əliyalın şəkildə terrorçunun üzərinə atıldığını, qorxmaz və çevik hərəkətləri ilə onu tərk-silah etdiyini Seyid İbrahim Rəisinin də diqqətinə çatdırıb. Prezident İlham Əliyev terrorçu tərk-silah olunmasaydı, səfirliyin digər əməkdaşlarını və onların səfirlik binasının mənzillər bölməsində yaşayan ailə üzvlərini də hədəfə alacağının istisna edilmədiyini deyib. Dövlətimizin başçısı diplomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin olunmasının vacibliyini vurğulayıb.

## O da şəhadət yolçusu oldu

Tehranda səfirliyimizə qarşı törədilmiş terror aktı indiyə qədər ermənipərəst İranda aparılmış anti-Azərbaycan təbliğatının və fəaliyyətinin qanlı nəticəsidir. Saxta islam respublikası bu qatil əməlləri ilə heç nəyə nail ola bilməyəcək. Mərd Azərbaycan xalqı, qüdrətli Azərbaycan dövləti milli mənafelərini təhdid edən bütün düşmənlərinin, eləcə də ermənipərəst İranın layiqli cavabını verməyə hər zaman qadirdir.

Ötən cümə İrandakı səfirliyimizin təhlükəsizlik əməkdaşları bunu bir daha sübut etdilər ki, milli maraqlar uğrunda ölkəmizə qarşı təhdid yaradan bütün qüvvələrlə çarpışıb-vuruşmağa, hətta bu yolda şəhadət zirvəsinə ucalmağa da hər an hazırdırlar.

Orxan Əsgərov kimi...

Ruhun şad olsun, qəhrəman şəhid! Sən də Vətən yolunda canını fəda edərək şəhadətə yüksələn igidlərimizin cərgəsinə qoşuldun, haqqın dərgahına qovuşdun!

Bil ki, qanın yerdə qalmayacaq!

Müqəddəs cümə günündə xain pusqu qurub canına qıyan xainlər, dinsizlər mütləq haqq divanına çəkiləcək, layiqli cəzalarını alacaqlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 1 fevral.- S.1; 7.